

Günel XƏZƏL:

# Zərdüştlə söhbəti…

**– Özümlə danışmaq sayılar sənlə söhbət?**

– Nə bilim. Danışaq, qəbul edərlər, var olsunlar, etməsələr, sağ olsunlar.

**– O dünyada da zarafatcılsan?**

– Bu, ruh halıdır. Fiziki bədəndən çıxanda da xasiyyət, xislət dəyişmir.

**– Ölkələri var oranın?**

– Yox, dünyaları var. Çox sual vermə, öləndə bilməli olduqlarını yuxuda bilmək yasaqdır.

**– Sizinçün bura yuxu sayılırsa, biz yuxuda harda oluruq?**

– Burda.

**– 40 yaşımda şeirlərimi "Ulduz"a vermək gülməli görünmür?**

– Görünür. Mənimkiləri də calamaq istəyin lap uğunmalı görünür.

**– Əngəl ola bilmədiyin üçün hirslisən? Gözüm aydın! Hirslənsən də, yollayacam.**

– Hikkən həminkidir.

**– Xasiyyət dəyişmir, özün dedin ki.**

– Sağkən dəyişmək üçün fürsətin var.

**– Buna görə yatızdırılırıq dünyaya.**

– Hə, dəyişmək üçün.

**– O qədər təzə mahnılar tapmışam ki. Dinləməni istərdim. Sənin şeirlərinə də bəzi yeni nəğmələr bəstələmişəm.**

– Eşitmişəm. Sonuncu yaxşıdır. Əvvəlkilərdə ya samitlərimi yeyirsən, ya saitlərdə çox dayanırsan.

**– Orda şeir yazırsan?**

– Yox, burda şeir yazmırıq, yaşayırıq.

**– Gülüşünçün darıxmışdım.**

–…

# …və şeirləri

**Renata Litvinovanın "Şimal küləyi"nə**

Ulduzlarmı gecə quşlarıdı,
quşlarmı gündüz çıxan ulduzlar?!
Nə fərqi var –
yox olmağa çağırırsa buludlar?!
Zaman dolur?! Vaxtmı çoxalıb?!
Günlər yüz saat olub elə bil.

Səslər, sözlər, hisslər, fikirlər,
ən çox da məcbur edilənlər
usandırıb.
Divarlar, pəncərə, tavan, qapılar -
ən doğma yaxınlar.
Qəribədi –
ölümə yaxınlaşdıqca daha dadlı olub  yuxular.

**"Ailə münaqişələri" (Berqman, 1973) filminə**

Əvvəldə "söz" vardı, indi "heç nə" var.
O qədər sözlərə basdırıldıq ki,
yaşamaq yerinə,
duymaq yerinə,
düşünmək, danışmaq, söz
yedi bizi.

O qədər sözlərdə pənah gəzdik ki,
yandırdı hər kəsi umduğu yeri.
Beyinlər sözlərə mismarlanandan
canlılar aşındı adamlığından…

Toxunmaq, qoxlamaq, baxmaq, dadmağı
dinləmək, deməklə etdik bayağı.
Ruhda cilalamış hisslərimizi
yedi insanlığın söz adlı divi…

**İki hökmdar**

O qədər unudulmaz ayrılıqlar yaşadıq ki sənlə,
barışıb
tərk etməyim gəlir yenidən.
Hədsiz sevər,
sərhədsiz savaşar, mərhəmətlə ayrılardıq, amma
ağlaya-gülə:
"Alınmır, neyləyək, alınmır bizdə".
Nifrətlə sevginin arasında
qıvrıla-qıvrıla
başqa heç nə düşünməyəcək qədər
dərdə mübtəla
günlərimiz olardı,
sən başqa qadınlarla, mən dostlarla baş qatardıq
bir ara.
Sonra
"bağışla" demədən
qapıma gələrdin qınaya-qınaya,
nə dediklərindən peşman, nə fikrini dəyişərdin,
elə döyüş əhvalıyla
barışıq tələb edərdin.
Savaş ədasılyla da mən qoluna girib gedərdim
ayrılmağa sənlə –
nə vaxtsa lap yaxında.
İki od, iki qoç, iki hökmdar.

**Yuxu?! Arzu?!**

Səhər durub gördüm ki,

bütün ac uşaqların qarnı doyub,
əlcəklərini geyinib ömür oynamağa düşürlər
aşağı;

sən demə, bu il ən çox ölüm sayı
sevincdən ürəyi partlayanlardı;

hamı eyni dildə susub kobud sözləri,
torpağa dönüb qəzəb, çiçək bitirib hər budağı;

tələsən, gözləyən, ürkən, üzülən,
canından bezən bir canlı da yoxdu...

Səhər durub gördüm ki,
arzularıma yuxu qonub.

**Mərhum Gövhər Xatuna**

Qıvrıla -qıvrıla bəyaz ilanlar
Dodağımdan qopub qanadlanırlar
Yaşıl kölgələrin ahu-vayına
İşıq kölələri yerə axırlar.

Soruşsan, necəyəm ölüm sonrası?!
Gözümdə damarlar laxtalanırlar!
Danışma, təsəlli sözləri hamısı
Mərhumə anayla yoxa çıxıblar...

Başdaşı üstündə gülümsəyənlər
Getdiyi ünvana necə çatırlar?!
Dua zümzüməsi eşitməyənlər
Yuxuma zəncirli tilov atırlar...

– Hanı arzuların əlvan ahəngi?
– Kəfən ağlığına basdırılıblar...
Qara torpaq rəngli daş çərçivəni
Ömür divarına mismarlayıblar...

**Eşqitrasin**

Eşqin istifadə qaydalarını oxuyuram.

Əks təsirləri:
əzab, məyusluq, yuxusuzluq,
iştahsızlıq,
sinir sisteminin pozulması,
çarəsizlik.

Gündə üç dəfə içmək lazımmış:
– yuxudan duran kimi acqarına,
– oyaq olanda,
– gecə yataqda.

Sağaldırmış tənhalıqdan,
azalırmış kimsəsizlik...

Bir də...
bir də mütəmadi istifadə zamanı
alışqanlıq yaradırmış...

**Oğulsuz şəhid anası**

Ana körpə balasının yatağını
sığallayar laylayla,
ana şəhid balasının məzarını
cırmaqlayır fəryadla.

Yorğan olmaz uşağına bayraq da,
"Bu soyuq, dar qəbirdə
nə sayaq isinəsən, canımda ağrı bala?!

atılan mərmilər
oğlunu oyatmaz da,
ananı ovutmaz da...

Bütün aləm baş əysə də, balanın məzarında
təsəlli olmaz
balasızlığa gözü dikilmiş anaya...

Anlamaz:
necə qıydı
ağrıyla, sancıyla, əzabla
böyütdüyü balasına
ağrıyla, sancıyla, əzabla
böyüyüən başqa bala?!

**Zevsə**

sən nə vaxtsa, hardasa
əlim-qolum olmusan,
gözlərimin yaşını
ovcunda saxlamısan,
kövrəlib darıxanda
saçımı daramısan.

biz nə vaxtsa, hardasa
üzüm tarlası əkib,
barını birgə dərib,
əzib suyun çəkmişik –
şərab düzəltmişik.
günəş çıxana kimi
sərxoş etmisən məni.

o hardasada bir gün
şərab düzəltdiyimçün
dindar, cahil canilər
əl-qolumu kəsiblər,
sonra iyirmi ilə
ölmüşəm gilə-gilə.

bildinmi indi niyə
doğulmuşuq səninlə
cəmlənməyən fərq ilə?

**Kürə səhnə**

Yox ol, dedi, yox oldu,
Sular axdı, duruldu.
Soruşsaz ki, nə oldu?!
Heç nə, heç nə və heç nə!..

Ömür böyük oyundu,
Kim uddu, kim uduzdu?!
Sonda qalib kim oldu?
Səhnə, səhnə və səhnə!..

Fələk çarxı buruldu,
Haqqın hökmü oxundu:
– Neçə illik tutuldu?
– İki min iyirmicə.

**Hər şey yaxşı olacaq**

Qaranlıqdan gözlərim qamaşanda
hər dəfə işıq dadıma çatdı –
"Hər şey yaxşı olacağ"a inandım.
Həyatımdakı boşluğu
dadlı-duzlu göz yaşım doldurdu –
aciz olmaqdan utanmadım.
Boz şəhərdə anam təbiətin nəfəsini
səmadan aldım –
azla yetinməyi bacardım.
Hələ də bir doğmam varmı, yoxmu,
deyə, narahat olmadım –
ehtiyacı olanlardan qaçmadım,
ehtiyacım olanları çağırmadım, arzuladım –
özləri gəldi.
Çətin günlərdə, yuvasız, pulsuz,
ac qalmaqdan qorxmadım –
kimsəsiz olmayım deyə,
sevmədiyim adamlara sığınmadım.
Qınaqlara tənzimləmədim
yaşam tərzimi.
Tərifə hesablamadım
savablarımı.
Günahlarımın üzünə durmadım –
tövbəylə tumarlayıb,
könlünü aldım.
Yaşadığım bahalı evdə də,
yoxsul evdə də
ən sevdiyim yer pəncərə önü oldu –
ömrün hər otağında
içimdəki mənzərədən rahatlıq tapdım.
Əlbət, bezdiyim də oldu,
üsyan etdiyim də,
amma hər dəfə
qoluna girib, başımı çiyninə söykədiyim
ümidim oldu.
Məyusluğa məğlub olan ümidlərimsə
məni inandırdı –
Mən inandım, inandırıram, siz də inanın:
Hər şey yaxşı olacaq!!!

## Birnəfəslik misralar

**Budaq qadınlara**

Masamda ağaclara baxıram:
Rəqs edərkən donmuş qadına bənzəyir hər budaq.
Fərqinə varıram:
Kölgədi, pəncərədi, iş yeridi.
– Dünən Covid-dən ölənlərin sayı neçəydi?

**Sülh nədir?!**

Atəşkəsdə yaşayanlar

Döyüş qorxusundan öldü.

Heç vaxt heç kim anlamadı:

Müharibə əsl sülhdü.

**Misra omaq istəyən qadına**

Damcılar yenə axır
Səmaların gözündən.
Şəhərə şeir yağır,
Hansı misradayam mən?!

**Qayıtmağa gecikənə**

adam ağac deyil,
çıxıb gedəsən,
qayıdıb görəsən,
qalıb yerində...